AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın beynəlxalq əlaqələri tarixi" şöbəsinin böyük elmi işçisi, t.e.ü.f.d. Gözəlova Nigar Rövşən qızının 2013-ci ilin iyunun 24-25-də Böyük Britaniyanın Oksford şəhərində keçirilən "Colonial Heritage in the Middle East and the Maghreb: the Shaping of Hopes and Perspectives" beynəlxalq konfransda iştirakı haqqında

Hesabatı

Cari ilin 24-25 iyununda Böyük Britaniyanın Oksford şəhərində keçirilən "Colonial Heritage in the Middle East and the Maghreb: the Shaping of Hopes and Perspectives" adlı beynəlxalq konfransda "XIX əsrin I rübündə Qacar ordusunun təşəkkülündə Britaniya hərbi mütəxəssislərinin rolu" adlı mövzuda məruzəm ilə iştirak etdim.

Bu mövzu Vətən tarixi elmində ilk dəfə olaraq Böyük Britaniyanın bölgədəki hərbi-siyasi fəaliyyəti, dövrün xarici siyasət amillərinin və daxili səbəblərinin məcmusu kontekstində təhlil və təqdim olunmuşdur. Məruzə konfrans iştirakçıları tərəfindən maraqla qarşılanmış və mövzu ilə bağlı bir neçə sual verilmişdi. Konfrans iştirakçılarını əsasən Qacar ordusunun uğursuzluğunun başlıca səbəbləri, Rus-İran müharibələrindən sonra Qacar ordusunun təşəkkülün davam edib etməməsi kimi suallar idi. Eyni zamanda konfrans iştirakçılarından biri olan prof. Xalid Ben-Şir belə bir təkliflə çıxış etdi ki, Qacar ordusunun təşəkkülü prosesi demək olar ki bütün Şərq ölkələrində gedən proseslərlə eynilik təşkil edirdi və ona görə də məqalədə bu proseslərin də ümumi bir kontekstdə təhlilini vermək maraqlı olardı.

Konfrans təşkilatçılarından olan prof. Məhəmməd Ben-Madani çıxışında bildirdi ki, konfransdan sonra seçilmiş məqalələr toplu olaraq çap olunacaq. Eyni zamanda o, bəzi məruzələrin artıq topluya salınması haqında qərarı açıqladı; bu məqalələrin sırasında mənim məruzəm də var. O, mənim məruzəmin "Ensiklopedi of İslam" baş redaktoru, dünyanın ən sayılan şərqşünaslarından biri olan prof. C.E.

Bosworth tərəfindən çox yüksək qiymətləndirildiyini vurğuladı. Oktyabrın sonlarına qədər məqaləmin son variantını (ingilis dilində) onlara göndərməliyəm.

Azərbaycan prezidenti yanında Elmin İnkişafı Fondunun 2013-cü il üçün 1-ci "Mobillik qrantı" müsabiqəsinin qalibi olmaq (Grant № EİF-Mob-1-2013-1(7)-16/15/5) mənə elmi fəaliyyətimdə çox önəmli olan konfransda iştirak etmək imkanı yaratdı, və mənim bütün maliyyə xərclərimin qarşılanmasına görə Azərbaycan prezidenti yanında Elmin İnkişafı Fondunun rəhbərliyinə və bütün işçilərinə bir daha öz minnətdarlığımı bildirirəm.

t.e.ü.f.d.Gözəlova N.

29.06.2013